**UOT 75**
**ORCID: 0009-0006-3213-0020**
**https://doi.org/10.52094/VFDS4852**

**Ayan Xəlilova Novruz qızı**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**Dissertant**
**ayan.khalil7@gmail.com**

# AZƏRBAYCANIN "ŞAHNAMƏ" MOTİVLİ SÜJETLİ KAŞI NÜMUNƏLƏRİNİN BƏDİİ-TEXNİKİ XÜSUSİYYƏTLƏRİ

**Xülasə:** Məqalədə Azərbaycan kaşı sənətində süjetli təsvirlərin formalaşması, xüsusilə Firdovsinin "Şahnamə"sindən qaynaqlanan motivlərin kaşı materialında bədii-texniki ifadəsi araşdırılır. Əsas diqqət süjetli kaşıların ornamental və epiqrafik nümunələrdən fərqli olaraq təsvirin semantik yükü ilə dəyər qazanması, onların memarlıq mühitində ideya-estetik funksiyalar yerinə yetirməsi və epik ənənələrin keramika sənətinə adaptasiyası məsələlərinə yönəldilir. Məqalədə qəhrəman-əjdaha və qəhrəman-şir mübarizəsini əks etdirən fraqmentlər, medalyon daxilində oturaq fiqur və üçfiqurlu mərasim səhnəsi kimi materiallar üzərində aparılan təhlil süjetli kaşıların həm bədii, həm texniki, həm də ikonoloji səviyyələrdə yüksək ustalıqla işlənmiş olduğunu göstərir.

Tədqiqatda təsvir sisteminin qurulmasında kontur xəttinin konstruktiv rolu, metal oksidli piqmentlərin tətbiqi, iki mərhələli şirələnmə prosesi, rəng sahələrinin kontur daxilində yerləşdirilməsi və fon-haşiyə münasibətləri kimi mühüm texniki amillər müəyyən edilir. "Şahnamə" süjetləri üzərində qurulan epik səhnələr igidlik, mübarizə, hökmdarlıq və sosial-mərasim motivlərini birləşdirərək Azərbaycan kaşı sənətində epik dünyagörüşünün bədii ifadəsinə çevrilir. Qəhrəman fiqurlarının geyim detallarının modelləşdirilməsi, heyvan fiqurlarının dinamik təsviri və dekorativ nəbati ornamentlərin kompozisiyadakı funksiyası süjetli təsvirlərin struktur bütövlüyünü təmin edən əsas elementlər kimi təqdim olunur.

Beləliklə, məqalədə süjetli kaşı nümunələrinin həm estetik, həm semantik, həm də texniki baxımdan Azərbaycan dekorativ-tətbiqi sənətinin mühüm bir sahəsi olduğu qənaətinə gəlinir və Firdovsinin "Şahnamə"sindən götürülmüş

motivlərin bu sənət növündə epik ənənənin davamlılığını təsdiq edən material kimi dəyəri vurğulanır.

**Açar sözlər:** Azərbaycan, dekorativ-tətbiqi sənət, süjetli kaşı, bədii-texniki xüsusiyyət, keramika

**Giriş.** Azərbaycan kaşı sənətinin çoxəsrlik inkişaf xətti göstərir ki, monumental memarlıq dekorasiyasında əsasən ornamental və epiqrafik tərtibat üstünlük təşkil etsə də, süjetli kaşı nümunələri də müəyyən dövrlərdə mühüm bədii-estetik funksiyanı yerinə yetirmişdir. Say etibarilə nisbətən az olsa da, mövzu yönümlü təsvirlər daşıyan bu nümunələr təkcə dekorativ tətbiq baxımından deyil, həm də dövrün təsviri təsəvvürlərini əks etdirməsi ilə diqqəti cəlb edir. Süjetli kaşıların kompozisiya strukturunda quş, ceyran, balıq kimi heyvan fiqurları, dekorativ təbiət motivləri, memarlıq elementləri və bəzi hallarda insan təsvirləri aparıcı bədii komponent kimi çıxış edir.

Pir Hüseyn xanəgahı yaxınlığında tapılmış ulduz formalı kaşı süjetli təsvirlərin Azərbaycan keramika sənətindəki mühüm örnəklərindən biri hesab olunur. Bu nümunədə nəbati və həndəsi ornamentlərin fonunda canlı təsvirlərin kompozisiya daxilində funksional şəkildə əlaqələndirilməsi diqqət çəkir. Ornament quruluşu ilə süjet elementləri arasında yaradılmış tarazlıq kaşı ustalarının həm texniki bacarığını, həm də ornamentasiya ilə təsviri səhnəni birləşdirmək kimi mürəkkəb yaradıcılıq tələblərinə ustalıqla cavab verdiyini göstərir. Həmin nümunənin bədii dəyəri təkcə dekorativ səviyyə ilə məhdudlaşmır, həm də dövrün zövq meyarlarını, təsviri düşüncə ənənələrini və texniki təcrübəsini əks etdirir.

Süjetli kaşıların tətbiqi daha çox hamam, xanəgah və saray kimi məkanlarda müşahidə olunur. Bu tip interyerlərdə keramika dekorunun yalnız ornamental element kimi deyil, məkanın ideya-estetik konsepsiyasını tamamlayan bədii vasitə kimi çıxış etməsi tələb olunurdu. Monumental dini memarlıqda isə təsviri motivli kaşıların istifadəsi məhduddur. Bu məhdudiyyət dövrün ikonoqrafik qadağaları ilə memarlıq dekorasiyası arasında kompromis yaratmaq zərurəti ilə bağlı idi. Buna baxmayaraq, bəzi abidələrdə canlı təsvirlər naturalist şəkildə, bəzilərində isə şərti-simvolik biçimdə işlənərək ornament sisteminə inteqrasiya edilmişdir.

**Əsas hissə.** Azərbaycan memarlıq abidələrində qorunub saxlanmış süjetli kaşı nümunələri sənətkarlığın yüksək səviyyəsini təsdiq edir. Süjetli təsvirlərin

həm kaşı, həm də məişət keramikası üzərində geniş tətbiqi Şərq dekorativ-tətbiqi sənətinə xas olan estetik düşüncənin təzahürüdür. Bu, insanın gündəlik əşya və məkan mühitini bədii vasitələrlə zənginləşdirmək meyli ilə bağlıdır və kaşı sənətinin funksional-dizayn xarakterini daha da gücləndirir.

Süjetli kaşı nümunələri ornamental və epiqrafik tərtibatdan fərqli olaraq, əsas dəyərini təsvirlərin semantik məzmunundan alır. Onların kompozisiya quruluşu çox zaman məkana məxsus konseptual çərçivəyə uyğun qurulur və müəyyən ikonoqrafik proqram əsasında formalaşır. Azərbaycan ərazisində tapılmış bəzi nümunələrdə qədim İran və Ön Asiya təsviri ənənələri ilə bağlı mifoloji motivlərə, "Avesta" mədəni irsinə istinad edən süjetlərə, eləcə də Şərq ədəbiyyatının təsiri altında formalaşmış obrazlara rast gəlinir. Xüsusilə Firdovsinin "Şahnamə"sinin qəhrəmanlıq səhnələri ilə assosiasiya yaradan təsvirlər, heyvan fiqurlarının simvolik mənşəyi süjetli kaşıların ideya-məzmun dairəsini zənginləşdirir.

Azərbaycan süjetli kaşıları arasında Firdovsinin "Şahnamə" poe-ması ilə səsləşən epik qəhrəmanlıq səhnələrini əks etdirən nümunələr xüsusi yer tutur. Bu tip kaşıların bir qismi fraqmentar şəkildə günümüzə gəlib çatmış, lakin mövcud hissələr belə həmin dövrdə təsviri məzmunun kaşı sənətinə necə inteqrasiya olunduğunu göstərən mühüm materialdır. Təsvirlər əsasən qəhrəman-igid obrazını, əjdaha və ya digər mifik canlı ilə mübarizəni, atlı fiqurun dinamik hərəkətini və döyüş atributlarını ön plana çıxarır ki, bu da epik poeziyanın təsvir sisteminin keramika üzərinə uyğunlaşdırılması baxımından əhəmiyyətlidir.

Fraqmentar halda qorunmuş nümunələrdən birində *"uzun bığlı, ağ atlı, sol əlində xəncər, sağ əli ilə bədheybət əjdahanın başını tutmuş qüdrətli pəhləvan (igid) təsvir edilib. Kaşının sağ aşağı küncü qırıqdır. Təsvirlər qara konturla çəkilib və boyadılıb. Başında torlu dəbilqə, əynində ağ libas, qoluqısa mavi arxalıq, kürəyində qalxan asılıb. Buynuzlu əjdahanın ağzından od püskürür, kürəyində kiçik qanadları var. Göy fonda ağ buludlar, boz dağlar, yaşıl ağaclı tikililər, lalələr təsvir olunub. Yuxarıda S-formada burulan qızılgül budaqlarının hər iki tərəfində quşlar təsvir edilib. Arxada səkkizləçəkli çiçəklər görünür. Haşiyənin ağ fonunda yaşıl yarpaqlı çəhrayı, mavi çiçəklər təsvir edilib". (T.İbrahimova, 2014. s.9)*

Fiqurun başındakı torlu dəbilqə, kürəyinə bağlanmış kiçik qılınc və qaldırılmış qalxan döyüşçünün hərbi statusunu müəyyənləşdirir. Üst geyim mavi arxalıq, aşağı libas isə ağ rəngdə işlənmişdir; bu iki rəngin kontrastı mərkəzi fiquru

ön plana çıxarır. Konturların qara xətlə çəkilməsi, sarı və mavi piqmentlər arasında yaradılmış sərt keçidlər kontur daxilində rəngləmə və şirələnmə texnikasının səciyyəvi xüsusiyyətidir. Şirələnmədən sonra səthin sərt parlaq görünüş alması bu bölgədə tətbiq edilən keramika ənənələrinin texniki səviyyəsini göstərir.



**Firdovsinin "Şahnamə"sinə çəkilmiş illüstrasiyalı kaşı nümunəsi.**
**XVIII-XIX əsrlər.**

Fon dərin göy rəngdədir və üzərində ağ buludlar, alçaq dağ silsiləsi və yaşıl tikililər verilib. Tünd göy fon kobalt tərkibli piqmentlərin istifadəsini ehtimal etdirir. Buludların kontursuz, ləkəvi işlənməsi, dağların boz tonlarla verilməsi fonu səhnənin nəqledici deyil, tamamlayıcı elementi kimi funksionallaşdırır.

Üst haşiyə əsas səhnədən ayrıca zonaya ayrılmışdır. Haşiyədə səkkizbucaqlı ritmlə düzümlənmiş iri çiçək rozetləri və onların arasında müxtəlif istiqamətlərə çevrilmiş quş fiqurları yerləşdirilmişdir. Qövsvari qurulan haşiyə kompozisiyanı çərçivələyir və epik səhnənin dekorativ təsirini artırır. Ağ fon üzərində verilmiş yaşıl yarpaqlar, çəhrayı və mavi çiçəklər nəbati ornamentin Şirvan-Ərdəbil mərkəzlərində formalaşmış klassik üslubla bağlılığını göstərir.

Əsas səthdə bitki motivləri daha sərbəst şəkildə yerləşdirilmişdir. Sağdakı dik gövdəli iri çiçək, soldakı qısa kollu çiçək dəstəsi kompozisiyanın simmetriyasını gücləndirir və qəhrəman fiqurunun çərçivələnməsinə xidmət edir. Bu biomorf motivlər şirli kaşı dekorunun klassik sxemləşdirilmiş nəbati formalarına uyğundur.

Texniki baxımdan nümunədə kontur-üstdən rəngləmə ilə iki mərhələli şirələnmə prosesi müşahidə olunur. Piqmentlərin kontur daxilinə yerləşdirilməsi, üzərinin şirə qatı ilə örtülməsi, piqment sahələrindəki qopmalar və mina qatının mikroçatları bu kaşının uzunmüddətli memarlıq mühitində istifadə edildiyini göstərir. Dərin göy fonun sabitliyi və sarı-çəhrayı tonların yanma prosesində möhkəmlənməsi metal oksidli piqmentlərə işarə edir.

Beləliklə, bu nümunə qəhrəmanlıq süjeti ilə yanaşı, həm də ornamentlə təsviri səhnənin əlaqələndirilməsi, kontur xəttinin konstruktiv rolu, şirli piqmentlərin təbəqəliliyi kimi bədii-texniki xüsusiyyətləri ilə seçilir.

Digər süjetli nümunə də epik döyüş səhnəsi üzərində qurulmuşdur və ümumi poetik kontekstdə "Şahnamə"yə bağlı qəhrəman-şir mübarizəsini əks etdirir. Kaşı ikiqat haşiyə ilə çərçivələnmişdir: daxili haşiyədə zəncirvari dekor, xarici haşiyədə isə təkrarlanan dördləçəkli nəbati ornamentlər işlənmişdir.

Geniş mərkəzi sahədə sola doğru hərəkət edən döyüşçü əsas məna yükünü daşıyır. Sol əlində şirin başından tutması nəzarət və üstünlük funksiyasını, sağ əlində qılıncla həlledici zərbə üçün hazır vəziyyəti ifadə edir. Torlu dəbilqə, firuzəyi üst geyim, qol hissəsində torvari zireh, boz şalvar və uzunboğaz çəkmələr döyüşçünün hərbi atributlarını və dekorativ tərzdə stilizə olunmuş geyim konstruksiyasını tamamlayır. Firuzəyi, boz, sarı və qara tonların kombinasiyası səhnənin dekorativ ritmini müəyyənləşdirir.

Şir obrazı açıq-qəhvəyi rənglə verilib, bədənin üzərində indiqo piqmenti ilə çəkilmiş zolaqlar kompozisiyada heyvan fiqurunu səhnənin digər elementlərindən fərqləndirir. Sıçrayış mövqeyi səhnənin dramatizmini artırır və qarşıdurmanın gərginlərini ön plana çıxarır. Fon ağ saxlanmış, dağ siluetləri indiqo piqmenti ilə çəkilmiş kontur və kölgələmə vasitəsilə modelləşdirilmişdir. Arxa planda təsvir olunan kiçik fiqurlar səhnənin nəqledici qatını gücləndirir və hadisənin müşahidəçiləri kimi kompozisiyaya əlavə səviyyə gətirir.



**Firdovsinin "Şahnamə"sinə çəkilmiş illüstrasiyalı kaşı nümunəsi.**

Aşağı kənardakı yarımdairəvi bitki motivləri sıx ritm yaradır, üst kənarda quş motivləri ilə birləşdirilmiş çiçəklər haşiyənin ornamental zənginliyini artırır. Haşiyə sisteminin ikiqat quruluşu əsas səhnə ilə çərçivə arasında funksional sərhəd yaradır və səthin dekorativ bütövlüyünü təmin edir. Texniki baxımdan bu kaşıda da kontur xətti əvvəlcədən tünd piqmentlə çəkilmiş, daha sonra rəng sahələri kontur daxilində şirələnmişdir. Firuzəyi, indiqo, sarı və terrakota rəngləri metal oksidli boyaların tətbiqinə işarə edir. Səthdəki çat xətləri və rəng solmaları nümunənin memarlıq konstruksiyasında uzun müddət istifadə olunduğunu göstərir.

Nəticə etibarilə, bu kaşı yalnız epik qəhrəmanlıq süjetini deyil, həm də rəng, ornament, kontur xətti və mina qatının dekorativ funksiyası baxımından dövrün kaşı sənətinin yüksək bədii-texniki səviyyəsini nümayiş etdirir.

Şaquli formada uzadılmış növbəti kaşı fraqmentində mərkəzi sahə medalyon tipli çərçivə ilə vurğulanmış və içərisində oturaq kişi fiquru təsvir edilmişdir. Fiqur başını sağa çevirmiş, baxışları sağ əlində tutduğu qədəhə

yönəlmişdir. Üz xətləri profildən işlənmiş, uzun qara qaşlar, badamvari gözlər, incə burun və qısa saqqal qara konturla aydın şəkildə modelləşdirilmişdir. Baş geyimi ucluğu geriyə əyilən, saplaqvari elementi konturla xüsusi vurğulanmış papaqdan ibarətdir.

Əynində yaşıl – ot çalarında uzun libas təsvir olunmuşdur. Qol və yaxa hissələrində kontur daxilində sarı vurğuların tətbiqi libasın dekorativ quruluşunu artırır və fiqurun mərkəzi mövqeyini saxlayır. Medalyonun hər iki tərəfində zanbaqvari çiçəklərdən ibarət gül çələngləri yerləşdirilmişdir. Saplaqlar nazik konturla çəkilmiş, ləçəklər açıq-qəhvəyi və sarı tonlarda boyanmışdır ki, bu da bitki ornamentinin səthdə ritmik tarazlıq yaratmasına xidmət edir.

Mərkəzi fiqurun qarşısında yarımdairəvi, qaranlıq tonlarda işlənmiş predmet (qədim qab və ya təknə ehtimalı) kompozisiyanın aşağı hissəsində ağırlıq mərkəzi həssaslığını təmin edir.

Medalyonun fonu indiqo rəngli olub, kontur boyunca açıq narıncı-qəhvəyi haşiyə ilə çərçivələnmişdir. Medalyonu əhatə edən sahə açıq mavi fon üzərində qurulmuş və dörd bucaqda qövsvari şəkildə burulan çiçək budaqları yerləşdirilmişdir. Bu relyefvari nəbati ornamentasiya səthin dekorativ kompozisiya strukturunu gücləndirir və mərkəzi fiquru bədii baxımdan çərçivələndirir.

Texniki baxımdan nümunədə kontur xətti əvvəlcədən qara piqmentlə çəkilmiş, rəng sahələri kontur daxilində mina ilə doldurularaq şirələnmişdir. Yaşıl, sarı, qəhvəyi və indiqo çalarlarının istifadəsi metal oksidli piqmentlərin tətbiqinə işarə edir. Şirə qatında müşahidə olunan mikroçatlar və piqmentin solma izləri kaşının uzunmüddətli memarlıq mühitində saxlanıldığını ehtimal etdirir. Bəzi tünd ləkəli sahələrdə mina qatının yanma prosesində qeyri-bərabər əriməsi nəticəsində mikro-kristal strukturların əmələ gəldiyi görünür.

Kompozisiya bütövlükdə mərkəzi fiqurun frontal mövqeyi ilə medalyon-haşiyə münasibəti üzərində qurulmuş, simmetriya çiçək ornamentləri vasitəsilə təmin edilmişdir. Fiqurativ təsvir dekorativ səthlə birləşdirilmiş, kontur xəttinin hökmranlığı və rəng qatlarının təbəqəliliyi isə nümunəyə həm illüstrativ, həm də ornamental xarakter vermişdir.

Bu silsiləyə daxil edilən sonuncu nümunədə mərkəzi sahədə əlində hakimiyyət rəmzi – məşəl və ya hökm simvolu olan gənc fiqur təsvir olunmuşdur. Fiqur frontal mövqedə verilmiş və kompozisiyanın ideya yükünü

daşıyan əsas obraz kimi mərkəzləşdirilmişdir. Gəncin hər iki tərəfində diz üstə oturan iki ağsaqqal təsvir edilmişdir.

Sağdakı ağsaqqal əlini əsaya dayamış halda verilib; sol tərəfdəki isə sol əlində xəncər tutaraq sağ əli ilə gəncin biləyinə toxunur. Bu jestlər mərasim xarakterli rəmzilik – qəbul, təsdiq və ya hakimiyyətin ötürülməsi prosesini ehtimal etdirir. Hər iki ağsaqqalın baxışlarının gəncə yönəlməsi səhnənin semantik yükünü gücləndirir.

Gəncin geyimi yaşıl çalarda uzun libasdan ibarətdir; qol və yaxa hissəsində kontur daxilində sarı detallar işlənmişdir. Çəhrayı alt libas, boz çəkmələr və qabarıq konturlu bədən xətləri fiqurun səthdə daha qabarıq oxunmasına imkan verir. Saç və saqqal xətləri tükvari cizgilərlə modelləşdirilmiş, baş geyimində üçbucaqvari və lentvari elementlər tətbiq edilmişdir.

Ağsaqqalların geyimləri nisbətən sakit rəng çalarlarında təqdim olunmuşdur. Yaşıl örtüklər və qəhvəyi-oxra alt geyimləri onların sosial statusunun gəncdən fərqli olduğunu vurğulayır. Sağ tərəfdəki fiqurun ağ saqqalının qalın konturla, sol tərəfdəkində isə daha yumşaq xətlə işlənməsi fərdiləşdirilməni gücləndirir.

Fon indiqo rəngindədir və mina qatının yanma prosesində bərabər paylanmaması nəticəsində səth nöqtəvi ləkələrlə zənginləşmişdir. Fon üzərində dağ siluetləri, açıq-boz çiçəklənmə qrupları və stilizə olunmuş nəbati motivlər yerləşdirilmişdir. Bu elementlər mərkəzi fiqurların əhatə sahəsini çərçivələndirməklə həm dekorativ, həm də kompozisiya tamamlayıcı funksiyanı yerinə yetirir.

Kaşının kənarları ikili xətlə haşiyələnmiş, haşiyə boyunca yaşıl və sarı bucaqvari elementlər ardıcıl ritm yaratmışdır. Haşiyə ornamentində təkrarlanan yarpaqvari və ləçəkvari formalar səthin dekorativ funksiyasını gücləndirərək kompozisiyanın çərçivə strukturunu tamamlamaqdadır. Təsvirlərdə kontur xətti konstruktiv əsas rolunu yerinə yetirmiş, boya sahələri kontur daxilində yerləşdirilmiş və üzəri şirə qatı ilə bərkidilmişdir. Yaşıl, çəhrayı, oxra və indiqo tonlarının istifadəsi metal oksidli piqmentlərə əsaslanan ənənəvi rəng palitrasını göstərir.

Beləliklə, bu kaşı nümunəsi üçfiqurlu səhnənin semantik quruluşu ilə yanaşı, geyim detallarında xətti üslub, fon səthində mina qatının xüsusiyyətləri, kontur-boya ardıcıllığı və haşiyə bəzəyinin simmetrik quruluşu baxımından

XVI-XVII əsr Azərbaycan kaşı sənətinin bədii-texniki prinsiplərini əks etdirən əhəmiyyətli materialdır.

**Nəticə.** Nəticə etibarilə qeyd edək ki, Azərbaycan kaşı sənətində Şahnamə motivləri xüsusi bir istiqamət formalaşdırmış, epik qəhrəmanlıq ənənələrinin keramika materialında bədii-texniki ifadəsinə şərait yaratmışdır. Bu nümunələrdə qəhrəman-əjdaha və qəhrəman-şir mübarizəsi, igidin at belində dinamik təsviri, döyüş atributları və mərasim xarakterli səhnələr Firdovsinin epik düşüncə sisteminin kaşı üzərində adaptasiyasını göstərir. Kontur xətti, şirələnmiş mina qatları, metal oksidli piqmentlər, dəqiq modellənmiş geyim və silah detallarına əsaslanan bu nümunələr həm təsviri düşüncənin, həm də texniki ustalığın yüksək səviyyəsini əks etdirir. Şahnamə mövzulu kaşılar Azərbaycan dekorativ-tətbiqi sənətində epik süjetin lokal ənənələrlə sintez olunmuş nadir və yüksək dəyərli nümunələridir.

## Ədəbiyyat siyahısı

1. Əfəndi R. (2007). Azərbaycan incəsənəti. Bakı: Şərq-Qərb, 160 s.
2. Ələkbərov E. (2019). Azərbaycan memarlığında bədii keramika. Bakı: “OPTİMİST”, 92 s.
3. Hüseynov R., Seyidov A. (2009) Yerin altından qayıtmış gözəllik (Ədəbiyyat muzeyindəki arxeologiya nümunələri). Bakı: “Araz”, 328 s.
4. İbrahimova T. (2004). Firdovsinin “Şahnamə” poemasında Atropatenanın “şah” alovu. “Azərbaycan Tarixi Muzeyi” toplusu. Bakı: [n.y.]
5. İbrahimova T. (2014). Kaşılar Azərbaycanın tarixi və mədəni irsini öyrənmək üçün qiymətli mənbə. Kataloq. Bakı: 26 s.

**Ayan Khalilova Novruz gizi**

## Artistic-Technical Features of Azerbaijani “Shahname” Motive Plot Tiles

**Summary:** The article examines the formation of plot images in Azerbaijani tile art, especially the artistic-technical expression of motifs originating from Firdovsi’s “Shahnameh” in tile material. The main attention is paid to the issues of plot tiles gaining value with the semantic load of the image, unlike ornamental and epigraphic examples, their performance of ideological-aesthetic functions in the architectural environment, and the adaptation of epic traditions to ceramic art. The analysis conducted in the article on materials such as fragments reflecting the hero-dragon and hero-lion struggle, a seated figure

within a medallion, and a three-figure ceremonial scene shows that plot tiles were crafted with high skill at both artistic, technical, and iconological levels.

The study identifies important technical factors such as the constructive role of the contour line in the construction of the image system, the application of metal oxide pigments, the two-stage glazing process, the placement of color fields within the contour, and the background-border relationship. Epic scenes based on the plots of the "Shahnameh" combine the motifs of courage, struggle, rule, and social-ceremonial motifs, becoming an artistic expression of the epic worldview in Azerbaijani tile art. The modeling of the clothing details of the hero figures, the dynamic depiction of animal figures, and the function of decorative plant ornaments in the composition are presented as the main elements that ensure the structural integrity of the plot images.

Thus, the article concludes that plot tile patterns are an important area of Azerbaijani decorative-applied art from both aesthetic, semantic, and technical points of view, and emphasizes the value of motifs taken from Firdovsi's "Shahnameh" as material confirming the continuity of the epic tradition in this type of art.

**Key words:** Azerbaijan, decorative and applied arts, subject-based tiles, artistic and technical features, ceramics

**Аян Халилова Новруз гызы**

**Художественно-технические особенности азербайджанских изделий с мотивом «Шахнаме»**

**Резюме:** В статье рассматривается формирование сюжетных образов в азербайджанском изразцовом искусстве, в частности, художественно-техническое воплощение мотивов, берущих начало в «Шахнаме» Фирдоуси, в изразцовом материале. Основное внимание уделяется вопросам, связанным с ценностью сюжетных изразцов, в отличие от орнаментальных и эпиграфических образцов, семантической нагрузкой изображения, выполнением ими идейно-эстетических функций в архитектурной среде и адаптацией эпических традиций в керамическом искусстве. Проведенный в статье анализ таких материалов, как фрагменты, отражающие борьбу героя с драконом и героя со львом, сидящая фигура в медальоне и трехфигурная церемониальная сцена, показывает, что сюжетные изразцы были изготовлены с высоким мастерством как на

художественном, так и на техническом и иконологическом уровнях. В исследовании выявлены такие важные технические факторы, как конструктивная роль контурной линии в построении изобразительной системы, применение металлооксидных пигментов, двухэтапный процесс глазуровки, размещение цветовых полей внутри контура и соотношение фона и кайма. Эпические сцены на сюжеты «Шахнаме» сочетают в себе мотивы мужества, борьбы, власти и социально-обрядовые мотивы, становясь художественным выражением эпического мировоззрения в азербайджанском изразцовом искусстве. Моделирование деталей одежды героев, динамическое изображение фигур животных и функция декоративно-растительного орнамента в композиции представлены как основные элементы, обеспечивающие структурную целостность сюжетных изображений. Таким образом, в статье делается вывод о том, что сюжетные изразцы являются важной областью азербайджанского декоративно-прикладного искусства как с эстетической, так и семантической и технической точек зрения, и подчёркивается ценность мотивов, заимствованных из «Шахнаме» Фирдоуси, как материала, подтверждающего преемственность эпической традиции в этом виде искусства.

**Ключевые слова:** Азербайджан, декоративно-прикладное искусство, сюжетные изразцы, художественные и технические особенности, керамика

Məqalənin redaksiyaya daxilolma tarixi: 26.11.2025
Məqalənin çapa qəbul olunma tarixi: 27.11.2025